№ 58

06.08.2018

# ƏMR

Bakı şəhəri

**"Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 161 nömrəli Fərmanından irəli gələn vəzifələrin icrası barədə"**

"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 dekabr tarixli 1774 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 161 nömrəli Fərmanı icra üçün qəbul edilsin.

2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın, digər səhiyyə idarə və müəssisələrin rəhbərlərinə tövsiyə edilsin ki, vətəndaşlara, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə tütündən istifadənin dayandırılmasına, tütün asılılığı və tütün istifadəsi nəticəsində yaranan xəstəliklərin müalicəsinə yönəldilmiş aşağıdakı məsələlərə diqqət yetirməklə tibbi yardım göstərilməsi təmin edilsin:

2.1. tibb müəssisəsinə müraciət etmiş pasiyentə, onun tütün çəkmə statusu müvafiq tibbi sənədlərdə qeydə alınmaqla, müalicənin səbəbindən asılı olmayaraq aktiv və passiv tütünçəkmə təhlükələri barədə məlumatların, tütündən istifadənin dayandırılması barədə tövsiyələrin və ona göstərilə biləcək tibbi yardım haqqında zəruri məlumatların verilməsi;

2.2. ilkin səhiyyə xidmətləri göstərən müəssisələrdə tütündən imtina kabinetlərinin təşkili və lazımi avadanlıq, ləvazimat və dərman vasitələri ilə təchiz edilməsi;

2.3. tütün asılılığının və tütündən istifadə nəticəsində yaranan xəstəliklərin profilaktikası, diaqnostikası və müalicəsinə dair tibb işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi.

3. Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru H.Qədirovaya tapşırılsın ki, tütün asılılığı və tütün istifadəsi nəticəsində yaranan xəstəliklərin müalicəsinə yönəldilmiş tibbi yardımın təşkili məsələlərində tibb müəssisələrinə metodiki köməklik göstərilsin.

4. Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru N.Qasımova tapşırılsın ki, tütün asılılığı və tütün istifadəsi nəticəsində yaranan xəstəliklərin müalicəsi məsələləri aidiyyəti təhsil proqramlarına daxil edilsin.

5. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru vəzifəsini icra edən İ.Abdullayevə tapşırılsın:

5.1. tütündən istifadənin nəticələrindən qorunma sahəsində dövlət nəzarətini təşkil edib, qanunvericiliyə uyğun olaraq həyata keçirilsin;

5.2. ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəldilmiş tədbirlərin monitorinqi keçirilsin.

6. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru vəzifəsini icra edən İ.Abdullayevə və İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Q.Haqverdiyevə tapşırılsın ki, Azərbaycan Respublikasının ərazisində tütündən istifadənin miqyasını müəyyənləşdirmək və istifadənin azaldılmasına nail olmaq məqsədi ilə həyata keçirilən və (və ya) planlaşdırılan tədbirlər haqqında mütəmadi olaraq əhalinin məlumatlandırılması təmin edilsin.

7. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru Ç.Əsəd-zadəyə tapşırılsın ki, insanların sağlamlığının ətraf mühitdəki tütün tüstüsünün təsirindən və tütündən istifadənin məhdudlaşdırılması haqqında qanunvericiliyin pozulması məsələlərinə dair vətəndaşların, o cümlədən fərdi sahibkarların və hüquqi şəxslərin müraciətləri üçün Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində "qaynar xətt"in yaradılması və internet informasiya-kommunikasiya şəbəkəsindən istifadə edilməsi təmin edilsin.

8. Beynəlxalq əlaqələr şöbəsinin müdiri S.Abdullayevə tapşırılsın ki, tütündən istifadənin nəticələrindən qorunma sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi, o cümlədən beynəlxalq müqavilələrin bağlanması istiqamətində tədbirlər görülsün.

9. Bu əmrlə verilən tapşırıqların icrası barədə hər ilin sonunda Səhiyyə Nazirliyinə məlumatın verilməsi təmin edilsin.

10.Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**

Əsli ilə düzdür